# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ KƏND TƏSƏRRÜFATININ BƏRPASI

**Elçin Zeynalov**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi*

Ölkəmizin iqtisadi baxımdan müstəsna rol oynayan işğaldan azad olunmuş əraziləri zəngin təbii sərvətlərə, eləcə də aqrar sahənin inkişafı baxımdan böyük potensiala malikdir. Bu ərazilərin aqrar imkanları işğal dövründən əvvəl də çox geniş olmuşdur. Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, 1980-ci illərdə bölgədə 139.8 min ha əkilmiş sahə mövcud olmuşdur. Əkinlərin strukturunda taxıl sahələri və üzümlüklər üstünlük təşkil etmişdir. Belə ki, əkilmiş sahənin 55%-i taxıl məhsullarının, 35%-i üzümlüklərin payına düşmüşdür. Həmin dövrdə Qarabağ və ətraf rayonlar ölkə üzrə taxıl istehsalının 13.9%-nə, üzüm istehsalının isə 25.5%-nə malik idi.

İşğaldan azad edilən rayonlarda ənənəvi sahələrlə yanaşı, perspektiv dövrdə meyvə və tərəvəzçiliyin, həmçinin heyvandarlığın təminatı baxımından yem bitkiləri əkinlərinin genişləndirilməsi də nəzərdə tutula bilər. Torpaq-iqlim xüsusiyyətləri nəzərə alınmaqla çoxillik əkmələrin strukturunda nar, xurma, alça, gavalı, albalı və gilas, alma, armud bağlarının, baramaçılığın inkişaf perspektivi baxımından tut bağlarının və ənənəvi sahələrin bərpası məqsədilə üzümlüklərin salınmasına üstünlük verilə bilər.

Hal-hazırda ölkədə taxılçılıq və üzümçülüyün faktiki inkişaf dinamikası nəzərə alınmaqla, taxıl və üzüm istehsalında bu bölgənin payının təqribən eyni səviyyədə olması gözlənilir. Bundan başqa, ənənəvi olaraq Qubadlı, Zəngilan və Kəlbəcər rayonlarında tütünçülüyün, Ağdam və Füzuli rayonlarında pambıqçılığın, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Tərtər bölgələrində üzümçülük sahələrinin bərpa edilməsi imkanları mövcuddur.

Ənənəvi sahələrin bərpası ilə yanaşı, bölgədə kartof, tərəvəz, bostan və yem bitkiləri əkinlərinin genişləndirilməsi imkanları böyükdür. Yüksək əlavə dəyər yaratması, emal sənayesi üçün xammal təminatı və ixrac imkanları perspektivi baxımından həmin ərazilərdə meyvəçiliyin inkişafına da xüsusi diqqət yetiriləcəyi gözlənilir.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, həmin bölgədə 1980-ci illərdə 321 min baş iribuynuzlu və 1.1 milyon baş xırdabuynuzlu heyvan mövcud olmuşdur. Perspektiv dövrdə isə bu sayın müvafiq olaraq iribuynuzlu heyvanlar üzrə 430 min başa və xırdabuynuzlu heyvanlar üzrə 1.6 milyon başa çatdırılması imkanları vardır.

Bütün təhlükəsizlik tədbirlərinə riayət edilməklə Kənd Təsərrüfatı Nazirliyinin nəzarəti ilə işğaldan azad olunmuş ərazilərdə 2020-2021-ci təsərrüfat ilində 10 min hektar, 2021-2022-ci təsərrüfat ilində isə 50 min hektar sahədə payızlıq və yazlıq əkin işləri həyata keçirilmişdir. Hazırda növbəti təsərrüfat ilinə hazırlıq işləri davam etdirilir.

30 ildir ki, yaylaqlara həsrət qalan soydaşlarımız artıq öz mal-qarasını işğaldan azad edilmiş Kəlbəcər və Laçın yaylaqlarına aparmağa başlamışdır. 2022-ci ildə həmin yaylaqlara 60 mindən çox arı ailəsi, 300 mindən çox xırdabuynuzlu heyvanın köçü Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təşkil edilmişdir.

İşğaldan azad olunmuş ərazilərimizdə kənd təsərrüfatı fəaliyyətlərinin bərpası, eləcə də digər tədbirlərimiz ətraf mühit və biomüxtəlifliyin qorunması, yaşıl enerji prinsipləri, iqlimə dost texnika və texnologiyaların tətbiqi başlıca məqsəddir.